**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ VƏ HÜQUQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**NAİLƏ ŞAHBAZ QIZI ƏSƏDOVA**

# MÜASİR TARİXİ PROSESDƏ SİVİLİZASİYALARIN ROLU

**İxtisas: 7207.01- Sosial fəlsəfə**

**Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI- 2014**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə,Sosialogiya və Hüquq İnstitutunun "Sosial fəlsəfə" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Maqsud Fərhad oğlu Cəlilov**
***fəlsəfə üzrə elmlər doktoru, professor***

**Rəsmi opponentlər:** **Məhəmməd Alı oğlu Balayev**
***fəlsəfə üzrə elmlər doktoru, professor***

**Rəna Oktaedr qızı Məmmədova**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

**Aparıcı təşkilat:** Azərbaycan Texniki Universiteti
( "Fəlsəfə və Politologiya"kafedrası)

Müdafiə «20_» _06__ 2014-cü ildə saat ____da Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutunun nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.115 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az – 1143,Bakı şəhəri, H.Cavid prospekti 31, AMEA-nın Fəlsəfə və Hüquq İnstitutu, IX mərtəbə, Konfrans zalı.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat «_____» ___________2014-cü ildə göndərilmişdir.

**Fəlsəfə və Hüqüq İnstitutunun nəzdindəki D.01.115 Dissertasiya Şurasının elmi katibi,fəlsəfə üzrə fəlsəfə doktoru** **S. A. Həsənova**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müasir dövrdə sivilizasiyaların varlığı və inkişaf dinamikasından bəhs edən, onlar arasındakı əlaqələrin və dialoqun baş tutmasına həsr edilən əsərlərin sayı müntəzəm olaraq artmaqdadır. Bu mövzunun müxtəlif aspektlərinin araşdırılması məsələləri filosofların, politoloqların, sosioloqların, mədəniyyətşünasların və digər mütəxəssislərin daim diqqət mərkəzində saxlanılır.

Müasir dünyada baş verən hadisələrin sosial-siyasi və fəlsəfi məzmununun dərk edilməsi baxımından sivilizasiyaların tarixi prosesdəki yeri və rolu ilə bağlı məsələlərin böyük aktuallıq kəsb etməsi o gerçəklikdən irəli gəlir ki, ikiqütblü ideoloji mübarizənin aradan qalxdığı bir dövrdə beynəlxalq münasibətlərin qurulması daha çox sivilizasion identikliyin müəyyənləşməsi istiqamətində baş verir. Bu da olduqca təbii və anlaşılandır. Belə ki, sosialist düşərgənin dağılmasından sonra dünyada baş verən qloballaşma prosesinin doğurduğu fəsadlar bütün aktuallığı ilə ortaya çıxdı. Bir çox tanınmış mütəxəssislərin tədqiqatlarından aydın oldu  ki, müasir tarixi prosesdə qloballaşma adı altında cərəyan edən  ümumdünya fenomenin təzahürü əksər hallarda qeyri-Qərb sosiomədəni super-sistemlərin özünəməxsus mədəniyyətlərinin vesternləşdirilməsinə (qərləşməsinə) yönələn ekspansionist fəaliyyətdən başqa bir şey deyildir. Dünyanın Qərb modelinə uyğun şəkildə mədəni homogenizasiyaya uğradılması təmayülü özünü açıq şəkildə ictimai həyatın müxtəlif sahələrində büruzə verməkdədir.

Bu gün dünyada sivilizasiyalar arasındakı münasibətlərin hansı əsaslarda qurulması məsələsi tarixi prosesin gələcək gedişi baxımından böyük aktuallıq kəsb edir. Belə ki, qloballaşmanın indiki modelinin davam edəcəyi təqdirdə dünyada sivilizasiyalar arasındakı toqquşmaların baş verməsi ssenarisi olduqca real görünür.Gözlənilən qlobal təhlükənin aradan qaldırılması üçün sivilizasiyalararası dialoqun sosial fəlsəfi təhlilini özündə əks etdirən hazırkı tədqiqat işi dissertasiya mövzusunun daha bir aktual tərəfindən xəbər verir. İndiki dövrdə sivilizasiyalar arasında əməkdaşlıq əlaqələrinə söykənən yeni dialoqun qurulmasına ehtiyac vardır. Belə ki, bu dialoqun qurulması mümkündür. Bunun üçün riyakar siyasətdən, “ikili standartlar” prinsipindən əl çəkmək lazımdır.Hər bir sivilizasiyanın dəyərlərinə hörmət və qayğı ilə yanaşılması siyasəti sivilizasiyalararası dialoqun mütərəqqi təmayülünü təmin edə bilər. Bu səbəbdən bütün tərəfləri qane edə biləcək

sivilizasiyalararası dialoqun baş tutması qloballaşmanın humanistləşməsi prinsipinə əsaslanmalıdır. Yalnız bu istiqamətdə sivilizasiyaların özünəməxsusluğu və sosiomədəni xüsusiyyətləri qorunub saxlanılar, onlar arasındakı konfliktlər və ziddiyyətlər aradan qalxar, hər birinin iqtisadi və digər maraqları qarşılıqlı anlaşma şəraitində təmin edilə bilər. Bu cür pozitiv addımların atılması isə son nəticə etibarilə tarixi prosesin proqressiv inkişafına xidmət göstərmiş olar.

Avroatlantik məkana sürətlə inteqrasiya edən Azərbaycan Respublikası da müasir dünyanın sosial-iqtisadi və geostrateji siyasətində tarixi prosesi müəyyənləşdirən mühüm halqalardan birinə çevrilməkdədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dəfələrlə qeyd etmişdir ki, bir sıra məsələlərdə dünyanın aparıcı dövlətləri bizimlə hesablaşırlar. Coxmillətli və coxkonfessiyalı ölkəmiz öz üzərinə düşən yükü yaxşı dərk edir və qloballaşan dünyanın çağırışlarını qəbul edərək sivilizasiyaların dialoquna töhfəsini verir. Ölkəmizdə həmin prosesin mahiyyətinin və nəticələrinin sosial fəlsəfi istiqamətdə araşdırılması da aktuallıq kəsb etməsilə fərqlənir. Respublikamızın birinci xanımı, Heydər Əliyev Fondonun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyeva Bakıda keçirilən “Azərbaycan: sivilizasiyalararası dialoqun keçmişi və bu günü” mövzusunda beynəlxalq konfransında dialoqun qurulması istiqamətində öz təkliflərini irəli sürmüşdür. Mehriban xanım Əliyeva tolerantlıq amilinə xüsusi diqqət yetirərək, bu yolda Azərbaycanı bir nümunəvi ölkə kimi misal çəkmişdir [1].

Azərbaycanın qlobal miqyasda mədəniyyətlərarası və dinlərarası dialoqa dəstək verən ölkəyə çevrilməsi yönündə ən önəmli təşəbbüslərindən biri mədəniyyətlərarası dialoqun inkişafına dair “Bakı prosesi”ni həyata keçirilməsi oldu. “Bakı prosesi”ni sivilizasiyalararasası dialoq, mədəniyyətlərin yaxınlaşması yolunda atılan ən real və perspektivli addımlardan biri hesab etmək olar. Ölkəmizin missiyası mədəniyyətimizi, dinimizi qoruyub saxlamaqla yanaşı, sivilizasiyalara doğru inteqrasiya etməkdən ibarətdir. Azərbaycanda dinlər, dillər, milli azlıqların nümayəndələri birləşir və vahid sivilizasiyanın bərqərar olması istiqamətindəki tarixi prosesə qoşulur.

[1] Əliyeva M.Azərbaycan: sivilizasiyalararası dialoqun keçmişi və bu günü // ”Dirçəliş – XXI əsr”, 98-99/2006, s.46-48.

**Mövzunun işlənmə dərəcəsi.** Apardığımız araşdırmalar nəticəsində belə qənaətə gəldik ki, hazırkı dissertasiyanın mövzusu post-sovet məkanında az işlənilmiş problemlərdən biri kimi dəyərləndirilə bilər.

Sivilizasiyaların müasir tarixi prosesdəki rolunu işıqlandıran ən fundamental tədqiqat işi şübhəsiz ki, görkəmli amerikalı mütəfəkkir S.Hantinqtonun "Sivilizasiyaların toqquşması" əsəri hesab edilməlidir[2]. Tədqiqat əsəri beynəlxalq münasibətlər kontekstində qələmə alınsa da, burada qaldırılan və araşdırılan problemlərin spektri olduqca geniş, onların dərk edilməsi olduqca əsaslı, həlli yolları isə kifayət qədər əhatəlidir.

Araşdırdığımız mövzuya nisbətən yaxın olan daha bir müasir tədqiqat işi tanınmış rus alimi Y.Yakovetsin "Qloballaşma və sivilizasiyaların qarşılıqlı əlaqələri" əsəridir[3]. Sivilizasiyaların müasir durumunun sosial-iqtisadi aspektdə işıqlandırılmasını əks etdirən bu əsərdə daha çox sosiomədəni supersistemlərin müxtəlif ictimai sahələrinin konkret göstəricilərə əsaslanan inkişaf dinamikasına diqqət yetirilmişdir.

Sivilizasiyaların tarixi prosesdəki rolunu əks etdirən fundamental tədqiqatların sayı yetərli deyil. Bu istiqamətdə ilkin fundamental addım kimi məşhur ingilis mütəfəkkiri A.Toynbinin "Sivilizasiya tarıxin məhkəməsi qarşısında" əsərini qeyd etmək lazımdır[4]. Sivilizasiyaların toqquşması ilə bağlı problemin ilk dəfə işıqlandırılması da məhz bu əsərdə öz əksini tapmışdır.

Sovet dövründə isə bu istiqamətdə ilk ciddi addım atan tədqiqatçılardan biri L.İ.Novikova olmuşdur[5]. Novikovanın məqaləsinin əsas üstünlüyü onunla bağlıdır ki, burada problemin qoyuluşu metodoloji və qnoseoloji aspektlərdə aparılmışdır. Bu aspektdə yazılmış tədqiqat işlərindən N.B.Okonskayanın, Y.V.Bromleyin, V.P.İlyuşeçkinin əsərlərini[6]

---

[2] Хантингтон С. Столкновение цивилизаций, М., «Аст», 2006, 571с.

[3]Яковец Ю.В. Глобализация и взаимодействие цивилизаций. М., Экономика», 2003, 411с.

[4] Тойнби А.Дж. Цивилизация перед судом истории. М.,2003,с.265

[5] НовиковаЛ.И. Цивилизация как идея и как объяснительный принцип историического процесса// Цивилизации (выпуск 1). М.,«Наука», 1992, с.9-25.

[6] Оконская Н.Б. Цивилизация как магистраль мирового исторического процесса // Цивилизация в современном мире. М., 1983, 108с; Бромлей Н.Я. К вопросу о соотношении понятий «цивилизация» и «формация» // Цивилизации (выпуск 1). М., «Наука», 1992 с.225-228; Илюшечкин В.П. Цивилизация и общественные формации // Цивилизация и исторический процесс. М., 1983 с.6-14.

də qeyd etmək olar. Dünyanın tanınmış alimlərindən problemin tədqiqini aparanlar sırasında L.Espozito, F.Fernandes-Armesto, C. Merşaymer, B.Levis, D.Payps, İ.Vallerstayn kimi sanballı tədqiqat əsərlərinin müəlliflərini[7] qeyd etmək olar.

Son zamanlar respublikamızın tanınmış alimləri tərəfindən qloballaşan dünyada sivilizasiyaların qarşılıqlı əlaqələri,onlar arasındakı dialoq və əməkdaşlıq mövzusunda sanballı tədqiqat işləri qələmə alınmışdır. Bu alimlərdən M.Əliyevanın, R.Mehdiyevin, S.Xəlilovun,R.Aslanovanın,Y.Rüstəmovun,H.Hüseynovun, R.Uluselin, Ə.Həbibbəylinin əsərlərini[8] qeyd edə bilərik.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini tarixi proses və xüsusən də, müasir tarixi prosesin öyrənilməsini təşkil edir. Onun bilavasitə predmeti isə tarixi prosesdə sivilizasiyaların rolunu müəyyən etməkdir. Bu zaman qloballaşan dünyada sivilizasiyaların qarşılıqlı əlaqələri,onlar arasındakı dialoq və əməkdaşlıq problemi araşdırılmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiyanın məqsədi dünyanı bürüyən qloballaşma şəraitində sivilizasiyaların müasir tarixi

---

[7] Espozito L.J. The İslamiq Threat: Myth or Reality. New York, Oxford University Press, 1992 328p.; Fernandez-Armesto F. Millennium: A History of the Last Thousand Years. New York, Scribners,1995.816p.; John J. Mearsheimer and Stephen M.Walt, “The İsrael Lobby in the United States, Jordan Journal of İnternationnal Affairs,Vol. 1,№ 3 (Summer 2008)p,35-44;Lewis B. İslam and the West. New York, Oxford University Press, 1993.217p; Pipes D. İn the Path of God: İslam and Political Power. New Jersey, Trasaction books, 2002.373p; Wallerstein. Geopolitics and geoculture: Essays on the Changing World-sistem. Cambridge, Cambridge University Press, 1991.252p.

[8] Əliyeva M.Azərbaycan: sivilizasiyalararası dialoqun keçmişi və bu günü // ”Dirçəliş – XXI əsr”, 98-99/2006, s.46-48; Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Keçmişin dərsləri, bu günün reallıqları və gələcəyin perspektivləri. Bakı. XXI-YNE, 2005,464s; Xəlilov S. Sivilizasiyalararası dialoq. Bakı: "Adiloğlu" nəşriyyatı, 2009, 256 s; Aslanova R. Qloballaşma və mədəni müxtəliflik, Bakı, “Elm”, 2004,264s.; Rüstəmov Y. Sivilizasiyaların qarşılıqlı münasibəti, Bakı, “Səda”, 2007.144s.; Hüseynov H, Bəhərçi T. Qərb-Şərq münasibətləri xristian və islam təfəkkürü baxımından, Bakı, “Təknur”, 2005,442 s.; Ulusel R.S. Qloballaşma və türk sivilizasiyası, Bakı, “Çaşıoğlu”, 2005,152s.; Həbibbəyli Ə.İ. Sivilizasiyaların kəsişməsində türk dünyası. Bakı, “Elm və təhsil”, 2011 – 264 s.

prosesdə yerinin və rolunun müəyyən edilməsinə yönələn hərtərəfli elmi-tədqiqat işinin aparılmasıdır.

Dissertasiyanın məqsədinin yerinə yetirilməsi istiqamətində qarşıya qoyulan vəzifələrin lakonik ifadəsini aşağıdakı kimi təqdim etmək mümkündür:

− “tarixi proses” anlayışının tarixi idrak kontekstində inkişaf dinamikasının hərtərəfli tədqiqi;

− tarixi prosesin dərk edilməsi ilə bağlı mövcud baxışların təhlili;

− tarixi prosesə formasion və sivilizasion yanaşmaların müqayisəli təhlili;

− qloballaşan dünyada sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin araşdırılması və onlar arasındakı dialoqun mümkün yollarının üzə çıxarılması;

− müasir sivilizasiyalar sistemində İslam dünyasının yeri və rolunun müəyyənləşdirilməsi.

− müasir Azərbaycanın sivilizasiyalararası dialoq və əməkdaşlığa verdiyi böyük töhfəni təhlil etmək, bu modelin dünya miqyasında strateji əhəmiyyətini aşkara çıxarmaq.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiyanın elmi yeniliyi fəlsəfi aspektdə ilk dəfə olaraq sivilizasiyaların müasir tarixi prosesdəki rolunun müəyyənləşməsinə yönələn elmi-tədqiqat işinin aparılması ilə bağlıdır. Tədqiqat işinin gedişində əldə edilən digər elmi yeniliklərin konkret ifadəsini aşağıdakı kimi təqdim etmək mümkündür:

− mövcud fikirlər kontekstində “tarixi proses” anlayışının yeni definisiyasının irəli sürülməsi və tarixi prosesin əsas hərəkətverici qüvvəsinin müəyyən edilərək əsaslandırılması;

− sivilizasiyanın tarixi prosesə təsir edən başlıca amil kimi çıxış etməsinin əsaslandırılması;

− S.Hantinqtonun “çoxqütblü polisivilizasion dünya” paradiqmasının tənqidi təhlili;

− “modernləşmə” anlayışının “vesternləşmə” (qərbləşmə) anlayışından mahiyyətcə fərqləndirilməsi;

− müasir dövrdə sivilizasiyalararası münasibətlərdə özünü büruzə verən “ikili standartlar” prinsipinin tənqidi təhlili;

− müasir tarixi prosesdə sivilizasiyaların və onlar arasındakı əlaqələrin mümkün inkişaf perspektivlərinin müəyyən edilməsi;

− sivilizasiyalararası dialoq və əməkdaşlığın inkişafında müasir

Azərbaycanın özünəməxsus töhfə verməsinə fəlsəfi baxış.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Həm sinxron, həm də diaxron yanaşma baxımından tarixi prosesin mürəkkəbliyi və hermenevtik qəlizliyi ənənəvi məntiqi metodlarla yanaşı (ümumiləşdirmə, analogiya və s.), idrakın bir sıra digər üsullarının tətbiqini və tədqiqatın çoxaspektli səviyyədə aparılmasını nəzərdə tutur. Bu baxımdan tədqiqat prosesində tarixi-müqayisəli, eləcə də genetik, kulturoloji və proqnozlaşdırma metodlarından istifadə edilmişdir. Məhz müxtəlif metodların tətbiqi sayəsində tarixi prosesin bütövlüyünü, sosial inkişafın asinxronluğunu, sivilizasiyaların müxtəlifliyini, onların nisbi və dinamik sabitliyini, eləcə də inkişaf perspektivlərini aşkar etmək mümkün olur.

**Tədqiqat işinin elmi-praktiki əhəmiyyəti.** Qloballaşan dünyada cərəyan edən son hadisələr sivilizasiyaların və onlar arasındakı münasibətlərin müasir tarixi prosesin gedişində olduqca əhəmiyyətli rol oynaması gerçəkliyini üzə çıxarır. Ona görə, hazırkı tədqiqat işi tarixi prosesin bu günü və gələcək inkişaf perspektivlərinin dərk edilməsi baxımından, sivilizasiyalararası dialoqun qurulması aspektindən bu aktual mövzuya biganə qalmayan hər bir insan üçün yararlı ola bilər. Dissertasiyada irəli sürülən fikir və baxışlar fəlsəfə və politologiya kurslarının tədrisi prosesində sivilizasiyalara dair müxtəlif mövzuların işıqlandırılması üçün istifadə edilə bilər.

**Dissertasiyanın abrobasiyası.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun "Sosial fəlsəfə" şöbəsində yerinə yetirilmişdir. Tədqiqat işinin məzmunu, əsas müddəaları müəllifin elmi mətbuatda çap etdirdiyi məqalələrində öz əksini tapmışdır.

**Dissertasiya işinin strukturu.** Dissertasiya giriş, iki fəsli əhatə edən səkkiz yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **«Giriş»** hissəsində mövzunun aktuallığı əsaslandırılır, onun işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, elmi yenilikləri, nəzəri-metodoloji əsasları, elmi-nəzəri və praktik əhəmiyyəti müəyyənləşdirilir, aprobasiyası və strukturu nəzərdən keçirilir.

Dissertasiyanın birinci fəsli «**Tarixi idrak kontekstində tarixi proses və sivilizasiya»** adlanır. Bu fəslin "**Tarixi proses anlayışı və tarixi idrak"** adlı birinci yarımfəslində "tarixi proses" və "tarixi idrak" anlayışlarının fəlsəfi məzmunu təhlil edilir, diqqət paralellizm amilinə yönəldilir, sosiomədəni sistemin formalaşmasına təsir edən daxili və xarici amillər, tarixi proseslərdə liderin roluna, cəmiyyətin inkişaf qanunlarına ayrı-ayrı filosofların və tədqiqatçıların münasibəti araşdırılır.

Qeyd olunur ki,"tarixi proses" anlayışına tarixi idrak kontekstindən yanaşdıqda məlum olur ki, bu məfhumun meydana gəlməsi və daha sonra tarixin fəlsəfəsinin ontoloji əsası və aparıcı kateqoriyası kimi çıxış etməsi, qədim dövrdən başlayan tarixi bir inkişaf yolunun keçilməsi ilə bağlıdır. Tanınmış metodoloq İ.Konun göstərdiyi kimi, əgər tarixi proses tarix fəlsəfəsinin ontoloji tərəfini əks etdirirsə, onun qnoseoloji tərəfini məhz tarixi idrak təşkil edir[9]. Akademik Ramiz Mehdiyevin vurğuladığı kimi, tarix fəlsəfəsinin vəzifəsi isə tarixi prosesin gedişatını ümumiləşdirmək, daha əvvəl üzə çıxarılmış rəy və arqumentləri getdikcə daha sahmanlı şəkildə sistemləşdirmək və birləşdirməkdir [10]

A.Rakitov isə tarixi proseslərə marağın baş qaldırmasını kortəbii şüurdan əsl tarixi təfəkkürə, yəni tarixi idraka keçid üçün zəruri zəmin hazırladığını bildirirdi[11] və qeyd edir ki, tarixi refleksiyanın baş qaldırması həm də şifahi mətndən yazılı mətnə keçilməsi prosesi ilə bağlı olmuşdur[12].

Müasir dövrdə "tarixi proses" dedikdə, bəşəriyyətin inkişafını səciyyələndirən ümumdünya tarixi proses başa düşülür. Zənnimizcə, bəşəriyyətin inkişafını vahid halda qəbul edən "tarixi proses" anlayışının formalaşması üç əsas amilin təsiri nəticəsində mümkün olmuşdur: 1. dünyanın mexaniki mənzərəsinin bərqərar olması; 2. dövr-aləm

---

[9]Кон И.С. История в системе общественных наук //Философия и методология истории. М., «Прогресс», 1977, с.5
[10] Mehdiyev R.Ə. Tarixi idrakın elmiliyi problemlərinə dair, Bakı,"Şərq-Qərb"2013, s.53
[11] Ракитов А.И. Историческое познание: системно-гносеологический подход. М., «Политиздат», 1982, с. 57
[12] Yenə orda, c.55

səyahətlərin baş tutması; 3. ikincinin nəticəsində digər qitələrdə olan insanların həyat tərzinin öyrənilməsi. Bir sözlə, "tarixi proses" anlayışının meydana gəlməsi birdən-birə baş verməmişdir. Bu məfhumun müasir anlamının formalaşması uzun bir təkamül yolunun keçilməsi hesabına mümkün olmuşdur. Deməli, "tarixi proses" anlayışının mahiyyətinin dərk edilməsi üçün onun formalaşması tarixini nəzərdən keçirmək tələb olunur.

"Tarixi proses" anlayışının fərqli əsaslarda başa düşülməsini bir sıra konkret misallarda da açıq şəkildə görə bilərik. Məsələn, professor Panarin tarixi prosesə belə tərif verir: "Tarixi proses – zamanda davam edən və iştirakçıları iri sosial birliklərdən ibarət olan kollektiv dramdır"[13].Beləliklə, tarixi proses keçmişdəki hadisələrin sadəcə toplusu və ya cəmi deyil, keçmişə bütöv, sistemli baxışdır, harada ki, hadisələr tarixi inkişafın vahid prosesinin qarşılıqlı əlaqədə və qarşılıqlı təsirdə olan elementləri kimi çıxış edirlər.

Bir çox mütəfəkkirlərin əsərlərində tarixi prosesin subyekti olaraq qəbul edilən "dövlət", "xalq" və "millət" anlayışları sosiomədəni sistem kimi təqdim edilə bilər. Zənnimizcə, ilk dəfə Sorokin tərəfindən elmi dövriyyəyə gətirilən "sosiomədəni sistem" anlayışı iri həcmli sosial birliklərin ifadə edilməsi üçün (məs., sivilizasiyalar sosiomədəni supersistem kimi təqdim edilir) daha münasibdir. Deyilənlər əsasında tarixi prosesin aşağıdakı definisiyasını ifadə edə bilərik: tarixi proses sosiomədəni sistemlərin inkişafının vahid bəşəriyyətin formalaşmasına istiqamətlənmiş yoludur.

Dahi şəxsiyyətlərin, liderlərin tarixi prosesin hərəkətverici qüvvəsi qismində çıxış etməsi məsələsinə də toxunmaq lazımdır. Bəri başdan bildirək ki, tarixi prosesin gedişinə bu amilin təsir gücü həlledici olmasa da, kifayət qədər yüksəkdir. Liderin ümumilikdə tarixi prosesə, xüsusi halda isə sosiomədəni sistemin və ya konkret xalqın tale yoluna göstərdiyi real və bəzən də həlledici təsiri əyani olaraq, öz yaxın tariximizin gedişində izləyə bilərik. Azərbaycanda 1993-cü ildə təcrübəli siyasətçi və görkəmli dövlət xadimi ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə tarixi gəlişi, faktiki olaraq, xalqımızı parçalanma təhlükəsindən, respublikamızı isə müstəqilliyinin itirilməsi gerçəkliyindən qurtara bildi.

Bu fəslin "**Tarixi prosesə mövcud yanaşmaların müqayisəli təhlili**" adlı ikinci yarımfəslində görkəmli mütəfəkkirlərin tarixi hadisələr

---

[13] Философия истории. М., «Гардарики», 2001, с.7

haqqındakı fikirlərindən başlayaraq müasir dövrün ayrı-ayrı fəlsəfi istiqamətlərin nümayəndələri tərəfindən tarixi prosesə göstərilən yanaşmalara qədər, elmi ədəbiyyatda özünə yer tapmış müxtəlif baxışların təhlili verilmişdir. Burada qeyd olunur ki, tarixi prosesə mövcud yanaşmaların hərtərəfli fəlsəfi təhlili professor Semyonovun fundamental monoqrafiyasında daha dolğun şəkildə aparılmışdır. Müxtəlif dövrlərdə filosoflar tərəfindən tarixi proses haqqında söylənilən fikirlər kifayət qədər fərqli və ziddiyyətli olmuşdur.Lakin mütəxəssislərin tədqiqatları göstərir ki, bu müxtəlif baxışları əsasən iki istiqamətdə qruplaşdırmaq olar: unitar-mərhələli və plüral-dövri yanaşmalar[14]. Postsovet məkanında tarixi prosesə dair yanaşmaları daha çox formasion və sivilizasion istiqamətlərdən qruplaşdırırlar[15] ki, bu da əvvəlki təsnifatın xüsusi halı kimi dəyərləndirilə bilər.

Unitar-mərhələli yanaşmaya daxil olan baxışlar ümumdünya tarixini bəşəriyyətin irəliləyən, yüksələn bütöv inkişafı kimi başa düşür. Tarixə belə yanaşma inkişaf prosesində müəyyən mərhələlərin mövcudluğunu üzə çıxarır. Bu prosesdə iki mühüm aspekti fərqləndirmək mümkündür − bir tərəfdən prosesin bütövlüyü, yəni unitarlığı, və digər tərəfdən ümumdünya tarixində müəyyən mərhələlərin, dövrlərin keçilməsi məqamı hansılar ki, məhz unitar-mərhələli yanaşmanın ayırd edilməsinə əsas verir. Elmi-nəzəri baxımdan tarixi prosesə bu istiqamətdən yanaşılması şotlandiyalı mütəfəkkir A.Fergyusonun "Vətəndaş cəmiyyətinin tarixi təcrübəsi" əsərində əsaslı şəkildə işlənilmişdir.Bu əsərdə ümumdünya tarixi prosesin üç inkişaf mərhələsi - vəhşilik, barbarlıq və sivilizasiya dövrləri ayırd edilmişdir[16].

Tarixi prosesə dair mövcud baxışlarda özünü büruzə verən ikinci fərqli istiqamətin nümayəndələri, yəni plüral-dövri yanaşmadan çıxış edənlər ümumiyyətlə, vahid tarixi proses anlayışını qəbul etmirlər və bəşəriyyətin tarixini ayrı-ayrı sosial birliklərin tarixinin cəmi kimi başa düşürlər. Tarixi prosesə bu əsaslarda münasibət göstərən baxışlar mütəxəssislər tərəfindən plüral-dövri yanaşma kimi səciyyələndirilir (plüral – latın sözü olub, müxtəliflik deməkdir). Plüral-dövri yanaşmada subyekt qismində çıxış edən sosiomədəni sistemlər (xalq, millət, cəmiyyət, dövlət

---

[14]Семенов Ю.И. Всемирная история как единый процесс развития человечества во времени и пространстве // Философия истории: Проблемы и перспективы. М., «КомКнига», 2007, с. 10

[15] Философия истории. М., «Гардарики», 2001, с.375-378

[16] Фергюсон А.Опыт истории гражданского общества.М. РОССПЭН, 2000. с.389

və s.), bir qayda olaraq, bərabər meyarlar əsasında dəyərləndirirlər. Plüral-dövri yanaşmada ümumdünya tarixi anlayışı öz mənasını itirir. Çünki bu tip baxışlarda inkişaf edən bəşəriyyət deyil, ayrı-ayrı sosiomədəni sistemlər olur və bu halda bəşər tarixinin nə inkişaf mərhələləri üzə çıxır, nə də ümumi inkişafı baş verir. Tarixi prosesə elmi-konseptual əsaslarda plüral-dövri istiqamətdən yanaşan ilk mütəfəkkirlər XIX əsrin ortalarında yazıb-yaratmış fransız J.A.de Qobino və alman Q.Rükkert olmuşlar. Onların yolunu isə daha sonra rus mütəfəkkiri Danilevski və XX əsrdə Şpenqler, Toynbi və b. davam etdirmişlər[17]. Maarifçilik dövrünün nümayəndələri tarixi prosesin ardıcıl üç inkişaf pilləsi kimi vəhşilik, barbarlıq və sivilizasiya mərhələləri qəbul edirdilər.

Formasion analizdə tarixi prosesin şaquli əlaqələri tədqiq edilir, dinamikası öyrənilir. Sivilizasion yanaşmada isə, əksinə, tarixi proses üfüqi müstəvidə tədqiq edilir, ümumi dəyərlər əsasında birləşdirən sosiomədəni əlaqələrə diqqət yetirilir. Müxtəlif nəzəriyyələrin yaradıcıları simasında U.Rostou, C.Helbreyt, D.Bell, A.Toffler və digər görkəmli mütəfəkkirlər çıxış etmişlər. Məs., Tofflerin nəzəriyyəsində tarixi prosesin dövrləşdirilməsi nəticəsində ictimai inkişafın üç mərhələsi ayırd edilir: aqrar (bəzən industriala qədərki mərhələ kimi də işlədilir), industrial və postindustrial. Sonuncu mərhələ daha çox maraq doğurur, hansı ki mütəfəkkirlərin baxışlarından asılı olaraq informasion (E.Masuda), texnotron (Z.Bjezinski) və s. cəmiyyətlər kimi adlandırılır[18].

Ümumiyyətlə, təzadlı fikirləri olmasına baxmayaraq mütəfəkkirlərin, tədqiqatçıların tarixi prosesə baxış bucağı elmdə böyük maraq kəsb etmiş, onların ideyalarının təhlilinin aktuallığı vurğulanmışdır.

Birinci fəslin üçünçü yarımfəsli **“Sivilizasiya anlayışının formalaşması dinamikası və sivilizasiya haqqındakı konsepsiyaların təhlili”** adlanır. Hesab edilir ki, “sivilizasiya” anlayışını ilk dəfə elmi dairələrdə “sivilizasiya” terminine ilk olaraq şotland alimi Adam Ferqyusonun (1723-1816) əsərlərində rast gəlinir[19]. Semyonov bildirir ki, bu anlayış yaranışı dövründə siniflərin, şəhərlərin meydana gəlməsi, dövlətin yaranması, yazının tətbiq edilməsi kimi hadisələrlə səciyyələnən cəmiyyətin müəyyən inkişaf səviyyəsini edir[20].

---

[17]Семенов Ю.И. Всемирная история как единый процесс развития человечества во времени и пространстве,2007, с.11-12
[18] Социология: учебник для вузов. М., «ЮНИТИ-ДАНА», 2005, с.127
[19] Həbibbəyli Ə.İ. Sivilizasiyaların kəsişməsində türk dünyası. Bakı, “Elm və təhsil”, 2011 – s.6
[20] Семенов Ю.И. Философия истории. М., 2003, с.114

Hal-hazırda “sivilizasiya” anlayışı olduqca geniş mənalar daşıyır və özünün mürəkkəb məzmunu ilə səciyyələnir. Digər tərəfdən, bu anlayışın saysız-hesabsız tərifləri mövcuddur. Bu isə o deməkdir ki, anlayışın şərhi ilə bağlı bu günə qədər mütəxəssislər arasında ortaq məxrəc əldə edilməmişdir.

“Sivilizasiya” anlayışının formalaşması dinamikasını tədqiq edən İ.N.İonov bu terminin təkamülündə üç mərhələni ayırd edir. Birinci mərhələ XVIII əsrin ortalarından XIX əsrin ortalarına qədər davam etmişdir. Bu dövrdə “sivilizasiya” anlayışı “tərəqqi” anlayışı ilə eyni müstəvidə işlədilir və hətta bəzən onunla eyniləşdirilir[21]. İkinci mərhələ təqribən XIX əsrin ikinci yarısına təsadüf edir. Bu dövrdə lokal sivilizasiyaların mövcudluğu ilə bağlı fikirlər və konkret tədqiqatlar meydana gəlir. Müvafiq olaraq, tarixi proseslə bağlı bəzi əsərlərdə tarixi prosesin subyekti kimi çıxış edən “sivilizasiya” anlayışı artıq cəm halında işlədilir.

Sivilizasiya və mədəniyyət anlayışlarına görkəmli şəxsiyyətlər tərəfindən bir-birindən fərqli münasibətlər bildirilmişdir. Görkəmli türkoloq Ziya Göyalp (1876-1924) mədəniyyət ilə sivilizasiya arasında müəyyən fərqliliklərin olduğunu yazmışdır. Belə ki, o, “Türkçülüyün əsasları” əsərində “mədəniyyət” sözünə “kültür” və ya ”hars”, “sivilizasiya”ya isə “mədəniyyət” sözünü qarşılıq kimi işlədərək yazırdı: “Kültür milli olduğu halda, mədəniyyət uluslararasıdır - beynəlmiləldir. Kültür yalnız bir millətin din, əxlaq, hüquq, ağıl, estetika, dil, iqtisadiyyat və texnika ilə bağlı yaşayışlarının uyumlu - ahəngdar bir bütünüdür. Mədəniyyət isə eyni inkişaf səviyyəsində olan bir çox millətlərin toplumsal - ictimai həyatlarının ortaq bir bütünüdür.[22]Hər qövmün (millətin) öncə yalnız kültürü vardır. Bu qövm kültür baxımından yüksəldikcə siyasət baxımından da yüksələrək güclü bir dövlət meydana gətirir. Digər yandan da, kültürün yüksəlməsindən mədəniyyət doğmağa başlayır. Mədəniyyət başlanğıcdan milli kültürdən - harsdan doğduğu halda, sonralar qonşu millətlərin mədəniyyətlərindən də bir çox müəssisələr - qurumlar alır”[23] Müasir dövr Azərbaycan filosoflarından

---

[21] Философия истории. М., «Гардарики», 2001, c.387

[22] Həbibbəyli Ə . Sivilizasiyaların kəsişməsində türk dünyası. Bakı, “Elm və təhsil”, 2011,s.11

[23] Göyalp Z. Türkçülüyün əsasları [Mətn] /Ziya Göyalp; Azərbaycan türkcəsinə çevirən, ön söz, izah və şərhlərin müəllifi. E.Mustafaoğlu; Hazırlayan. İ.Allahverdiyev.- B.: Maarif, 1991.- s. 47

akademik Ramiz Mehdiyev mədəniyyət və sivilizasiya anlayışlarının eynilik təşkil etmədiyi qənaətindədir. Onun fikrincə, "sivilizasiya mədəni proses üçün ilkin şərait yaradır, mədəniyyət isə yeniliyin yaradıcısı olmaqla sivilizasiyanın inkişafı üçün şərait yaradır. Mədəniyyət sivilizasiyanın təsbit etdiyi sosial normaların təcəssümünü, gerçəkləşdirilməsini nəzərdə tutan müstəqil maddi və mənəvi fəaliyyətdir. Eyni bir sivilizasiya çoxsaylı mədəniyyətlər yaradır. Məsələn, orta əsrlərdə ərəb, fars və Azərbaycan mədəniyyətləri islam sivilizasiyasının məhsullarıdır; türk sivilizasiyası türk, qırğız və Azərbaycan mədəniyyətlərini, eləcə də digər türkdilli xalqların mədəniyyətlərini əhatə edir."[24]

XX əsrin birinci yarısına təsadüf edən üçüncü mərhələdə "sivilizasiya" anlayışı tarixi prosesin aparıcı subyektinə çevrilmiş olur və sosiomədəni supersistem kimi öz varlığını təsbit etməklə bərabər, uzun müddət ümumdünya tarixini səciyyələndirən tərəqqi ideyasının şübhə altına alınmasını mümkün edir. Məhz bu dövrdə Şpenqler, Sorokin, Toynbi kimi mütəfəkkirlər "lokal sivilizasiyalar" konsepsiyasından çıxış edirlər.

Mütəxəssislər sivilizasiya nəzəriyyəsinin ilk klassiklərindən biri kimi "Rusiya və Avropa" əsərinin müəllifi[25] görkəmli rus mütəfəkkiri N.Y.Danilevskinin adını qeyd edirlər. Danilevskinin adı çəkilən əsərində qarşısına qoyduğu əsas məqsəd Avropa ilə Rusiya arasındakı münasibətlərə aydınlıq gətirilməsi ilə bağlı olmuşdur[26].

Alman filosofu O.Şpenqler məşhur "Avropanın qürubu" əsərində bildirir ki, mədəniyyətlər – orqanizmlərdir, dünya tarixi isə onların kollektiv tərcümeyi-halıdır[27]. Hər bir böyük mədəniyyətin ilkin simvolu, yəni ideal forması vardır. "Lokal sivilizasiyalar" təliminin görkəmli nümayəndəsi, böyük ingilis mütəfəkkiri A.Toynbinin 12 cildlik "Tarixin dərki"[28] əsərində xalqları və dövlətləri ehtiva edən iri cəmiyyətlərin, yəni sivilizasiyaların əhəmiyyətinə diqqət yetirilməsini vurğulayır. Bunun üçün o, axtarışlarını İngiltərədən başlayır və məntiqi ardıcıllıqla tarixin konkret tədqiqat obyekti kimi Qərb sivilizasiyanın çıxış etməsini müəyyən edir. Daha sonra iri cəmiyyətlərin, yəni sosiomədəni supersistemlərin müqayisəli təhlilini apararaq, hal-hazırda beş canlı

---

[24] Mehdiyev R.Ə. Fəlsəfə.Dərs vəsaiti,Bakı, "Şərq-Qərb" 2010, s.26
[25] Данилевский Н.Я. Россия и Европа. М., «Книга», 1991
[26] Сорокин П. О концепциях основоположников цивилизационных теорий // Сравнительное изучение цивилизаций: Хрестоматия. М., 1999, с.39
[27] Шпенглер О. Закат Европы, Новосибирск. «Наука», 1993, с.169
[28] Тойнби А.Дж. Постижение истории. М., «Айрис-пресс», 2003, с.130

sivilizasiyanın mövcud olmasını müəyyənləşdirir: Qərb cəmiyyəti, pravoslav-xristianlığı, islam cəmiyyəti, Hindistan cəmiyyəti və Uzaq Şərq sivilizasiyası.

P. Sorokin isə hesab edir ki, ümumiyyətlə heç bir sivilizasiya məhv ola bilməz, çünki o, mahiyyəti etibarilə bioloji orqanizm olmayıb, mədəni hadisədir. Bu baxımdan, məs., yunan-roma sivilizasiyasının yox olmasından danışmaq əsassızdır. Çünki, antik mədəniyyətin ortaya çıxardığı dəyərlərin indiki dövrün dünyagörüşünə təsiri kifayət qədər yüksəkdir və bu fakt danılmazdır. Eyni sözləri az və ya çox dərəcədə digər ölmüş hesab edilən və ya yaşamaqda olan sivilizasiyalara da şamil etmək mümkündür[29]. Ona görə də, bir variantlı dövri səciyyə daşıyan həyatı bütün sivilizasiyaların ömür yoluna şamil etmək düzgün deyil. Sivilizasiyalar və ümumiyyətlə, sosiomədəni sistemlər olduqca müxtəlif həyat yolu keçirlər və əgər bəziləri həqiqətən də, bioloji orqanizmin həyatına bənzər ömür sürürlərsə, digərləri bir neçə çiçəklənmə və ya tənəzzül dövrünü yaşaya bilirlər.

Bu fəslin sonuncu "**Sivilizasiya tarixi prosesə təsir edən amillər kontekstində"** adlı yarımfəslində tarixi prosesə təsir edən xarici və daxili amillər ətraflı təhlil edilir.

P.Sorokinin, Y.Semyonovun və digər mütəxəssislərin təsnifatından müəyyən etmək olar ki, tarixi prosesə təsir edən amilləri mahiyyəti etibarilə iki istiqamətdə qruplaşdırmaq mümkündür: xarici və daxili. Xarici amillərə demoqrafik, texnoloji, coğrafi və s. aid etmək olarsa, daxili amillərə ictimai şüuru, intellekti, ideologiyanı və s. bu kimi faktorları aid etmək mümkündür.

J.Boden cəmiyyətin inkişafını onun yerləşdiyi coğrafi mühit ilə bağlayır. Coğrafi amillərdən ən mühümü isə iqlimdir. Lakin həmin bölgənin torpağı, suyu, havası və digər təbii faktorları da inkişafa təsir edən mühüm amillərdir. Bu baxımdan Boden insanların yaşadığı əraziləri üç qrupa bölür (şimal, mülayim və cənub) və onların xarakterini, fəaliyyətini bu amillərdən asılı olaraq izah etməyə çalışır[30]. Coğrafi determinizm nəzəriyyəsini fransız maarifçiləri J-B.Dyübo və Ş.Monteskye daha da inkişaf etdirmişlər. Monteskye öz sələfləri kimi ictimai inkişafın ən mühüm təbii amili kimi iqlimi qeyd edirdi.

---

[29] Сорокин П. Общие принципы цивилизационной теории и ее критика // Сравнительное изучение цивилизаций: Хрестоматия. М., 1999, с. 53

[30] Боден Ж. Метод легкого познания истории. М., «Наука», 2000, с. 108-109

İctimai inkişafın və o dövrdə xüsusilə aktuallaşan tərəqqi ideyasının əsas təbii səbəbini axtaran maarifçilər bu amili insanların artan sayı ilə əlaqələndirməyə çalışdılar. Nəticədə, demoqrafik determinizm nəzəriyyəsi meydana gəldi.

XIX əsrdə avstriyalı tədqiqatçı L.Qumploviç özünün "Sosiologiyanın əsasları" əsərində göstərməyə çalışmışdır ki, bir xalqın digərini zəbt etməsi, siniflərin və dövlətlərin yaranması kimi ictimai inkişafı təmin edən proseslər ilk növbədə bu aparıcı amildən irəli gəlir[31]. Bu istiqamətə dəstək verən daha bir görkəmli sosioloq E.Dürkheym idi. Özünün "İctimai əməyin bölgüsü haqqında" əsərində o belə fikir söyləyir: "Biz demirik ki, cəmiyyətlərin sıxlığının artması daha çox əmək bölgüsünə səbəb olur, lakin təsdiqləyirik ki, bu amil əmək bölgüsünü şərtləndirir"[32].

Texnologiya istənilən sosiomədəni sistemin hərəkətverici qüvvəsidir. Məhz texnikanın inkişafı əvvəl aqrar, sonra isə industrial inqilabların baş verməsini təmin etmişdir. Lakin texnikanın öz inkişafının nədən asılı olması sualı L.Uaytın fikirlərində açıq qalır. "Mədəniyyətin təkamülü. Sivilizasiyanın inkişafı Romanın süqutuna qədər" əsərində Uayt bildirir ki, mədəniyyətin, sosial institutların inkişafını təmin edən əsas faktor texnoloji amildir[33].

Şübhəsiz ki, iqtisadi amili tarixi prosesin inkişafını təmin edən aparıcı xarici amil kimi qəbul edən mütəfəkkirlərin və bu istiqamətdə irəli sürülən təlimlərin sayı daha çoxdur. Onların içərisində hamımıza yaxşı tanış olan marksizm nəzəriyyəsi müstəsna yer tutur. Bir sıra Qərb tədqiqatçılarının və rus mütəxəssislərinin ümumi rəyinə görə, müəyyən qüsurları nəzərə almamaq şərtilə, adı çəkilən təlimin yaradıcıları tərəfindən elmi baxımdan yüksək səviyyədə əsaslandırılmış və işlənilmiş bir konsepsiya ortaya qoyulmuşdur.

Dissertasiyanın **"Qloballaşan dünyada sivilizasiyaların qarşılıqlı əlaqələri, onların yeri və rolu"** adlanan ikinci fəsli üç yarımfəsildən ibarətdir. "**Müasir dövrdə sivilizasiyalar arasındakı münasibətlər"** adlanan birinci yarımfəsildə bildirilir ki, müasir dövrdə sivilizasiyaların qarşılıqlı əlaqəsi, onların dialoqu və bir-birinə təsiri məsələlərinə həsr edilən tədqiqatlar hazırda aktuallıq kəsb edən fəlsəfi problemlər sırasında əhəmiyyətli yer tutur.

---

31 Семенов Ю.И. Философия истории. М., 2003, с.63
32 Дюркгейм Э. О разделении общественного труда. М., 1991,с.245
33 Семенов Ю.И. Философия истории. М.,2003, с.373

Konkret olaraq, müasir dövrdə sivilizasiyaların tarixi prosesdəki yerini və rolunu əks etdirən fundamental tədqiqat işinin müəllifi, amerikalı mütəfəkkir S.Hantinqtonun mövqeyinə görə, sivilizasiyalar arasındakı əlaqələrin tarixi iki təkamül mərhələsini keçmiş və hazırda üçüncü mərhələdə qərarlaşmışdır. Sivilizasiyaların ilk dəfə meydana gəldiyi vaxtdan başlayaraq üç min ildən artıq bir dövr ərzində onlar arasındakı əlaqələr əvvəlcə, demək olar ki, mövcud olmamış, sonralar isə əsasən təsadüfi səciyyə daşımışdır.

Erkən orta əsrlərdə sivilizasiyalar arasında əlaqələrin bir qayda olaraq epizodik səciyyə daşıması elm və texnikanın inkişaf tempinə də öz mənfi təsirini göstərmişdir. Bəzən ideyaların və texnologiyaların bir sivilizasiyadan digərinə ötürülməsi işinə yüz illərlə vaxt tələb olunmuşdur. Hantinqtonun fikrincə, yalnız VII əsrdən etibarən İslam sosiomədəni supersisteminin meydana gəlməsi ilə sivilizasiyalar arasındakı əlaqələr nisbətən daha sıx və davamlı xarakter almışdır[34].Hazırkı dövrdə dünya polisivilizasion əlaqələr mərhələsinə qədəm qoymuşdur.

Qərb və qeyri-Qərb sivilizasiyaları arasındakı əlaqələrdə narahatçılıq doğuran məsələlərdən biri də demoqrafik vəziyyət ilə bağlıdır. Bu narahatçılığı bölüşən sivilizasiyalardan biri də əsasında Rusiya dövlətinin dayandığı pravoslav sosiomədəni supersistemidir. Rus tədqiqatçısı Yakovets hesab edir ki, XXI əsrdə sivilizasiyalar arasındakı münasibətlərdə ortaya çıxacaq ən əsas ziddiyyət məhz bu amil ilə bağlı olacaqdır[35]. Qeyd etmək lazımdır ki, demoqrafik problemin yaratdığı miqrasiya prosesləri Amerikaya nisbətən Avropanı daha çox narahat edir. Son əlli ildə immiqrantlar Avropa dövlətlərinin milli tərkibinə arzuolunmaz dəyişikliklər gətirmişlər. Bu səbəbdəndir ki, miqrasiya prosesləri Avropa dövlətlərinin gələcək varlığı üçün cox ciddi problemlər yaradır. Qərb mütəxəssislərini narahat edən ən mühüm problemlərdən biri də odur ki, immiqrantlar əsas etibarilə yerli mədəniyyətə və həyat tərzinə uyğunlaşmaq istəmir və bir qayda olaraq öz dəyərlərinə sədaqət göstərirlər.

Bu fəslin ikinci yarımfəsli **“Sivilizasiyalar qloballaşan dünya müstəvisində”** adlanır. Bu yarımfəsildə qloballaşmaya olan müxtəlif münasibətlər təhlil obyektinə gətirilir. Burada qeyd olunur ki, qloballaşmanın mahiyyəti hələ axıra qədər dərk edilməmişdir. Bəzi

---

[34] Хантингтон С. Столкновение цивилизаций, М., «Аст», 2006, с.62

[35]Яковец Ю.В. Глобализация и взаимодействие цивилизаций, М., «Экономика», 2003, с.33

tədqiqatçılar qloballaşmanı kortəbii bir proses kimi dəyərləndirirlər[36]. Qloballaşmanı obyektiv qanunauyğunluq kimi ortaya çıxan bir proses adlandıranlar da vardır[37]. Mütəxəssislər bu qanunauyğunluğun üç obyektiv xüsusiyyətini qeyd edirlər: 1. XX əsrin əvvəllərində Yer kürəsi dövlətlər və millətlər arasında bölüşdürüldü və bunun nəticəsində dünya öz qapalılığını itirdi, onun sonlu olması müəyyənləşdi; 2.XX əsrin 60-cı illərində baş qaldıran ümumdünya problemlərin təsiri ilə insanlar özlərini qlobal vəhdətin üzvləri kimi dərk etdilər. Məlum oldu ki, ortaya çıxan qlobal problemləri bir və ya bir neçə dövlətin səyi hesabına həll etmək imkan xaricindədir; 3. İnformasiya və texnologiya sahəsində əldə olunan inqilabi nailiyyətlər, kommunikasiya sistemlərinin yeni nəslinin meydana gəlməsi XX əsrin sonlarında Yer kürəsinin hər tərəfini bir an içərisində insanlar, kapital, ideyalar və sənədləşmələr üçün əlçatan etdi. Bizdə fəlsəfə üzrə elmlər doktoru, professor Rəbiyyət Aslanovanın fikirləri ilə bölüşərək qeyd edirik ki, ortaya çıxan bu fenomen geriyədönməz xarakteri ilə səciyyələnir[38].

Qloballaşmanın gedişi təbii ki, sivilizasiyaların taleyindən yan keçə bilməz. Qloballaşma prosesi sivilizasiyalar arasındakı müxtəlif yönlü əlaqələrə ziddiyyətli təsir göstərir. Bir tərəfdən, şübhəsiz ki, dünyanın qloballaşması mədəniyyətlər və sivilizasiyalararası münasibətlərin daha da intensiv xarakter almasını labüd edir. Belə ki, qloballaşan sosiomədəni məkanda ölkələrin və sivilizasiyaların qarşılıqlı asılılığı daha da artır, miqrasiya proseslərinin artması ilə onların bir-birinə yaxınlaşması daha intensiv səciyyə daşımağa başlayır. Digər tərəfdən, xalqların sivilizasion özünüdərki prosesi geniş vüsət alır, dinlərin qarşıdurması artır və mədəniyyətlərin özünəməxsusluğunun dərki daha da dərinləşir. Qloballaşma şəraitində mədəniyyətlərin diffuziyası prosesi sürətlənir.

Sivilizasiyaların müasir durumu kifayət qədər rəngarəngdir. Həm də öz inkişafının müxtəlif mərhələlərində qərarlaşan hər bir sivilizasiya müxtəlif (iqtisadi, demoqrafik və s.) göstəricilərilə səciyyələnirlər. Ona görə də, onların gələcək inkişaf perspektivləri eyni meyarlar əsasında aparıla bilməz. Qərb modeli üzərində qurulan unifikasiya prosesi bu sivilizasiyalardan bir çoxları üçün faciəvi sonluqla nəticələnə bilər. Bu səbəbdən hər bir sivilizasiyanın gələcək inkişafı üçün onlara eyni

[36]Ровинская М.М. Интернационализация и глобализация средств массовой информации // Мировая экономика и международные отношения, 2007, с.80
[37] Социология: учебник для вузов, М., «ЮНИТИ-ДАНА», 2005, с. 362
[38] Aslanova R. Qloballaшma və mədəni müxtəliflik,Bakı "Elm ", 2004,s 12

meyarlardan yanaşmaq əvəzinə, özünəməxsusluq amilindən irəli gələn, sivilizasion xüsusiyyətlərin nəzərə alınmasını nəzərdə tutan qlobal sinergizm planı həyata keçirilməlidir, "dünya qlobal sinergizmə ehtiyaclıdır"[39] .

İkinci fəslin üçüncü yarımfəsli "**İslam dünyasının müasir sivilizasiyalar sistemində yeri və rolu"** adlanır. İslam dünyası dedikdə müsəlmanların məskunlaşdığı və Mərakeşdən İndoneziyaya qədər geniş bir ərazidə İslam dininin təsiri ilə tarixən formalaşmış müxtəlif mədəniyyətlərin ehtiva olunduğu özünəməxsus bir sivilizasiya təsəvvür edilir. İslam dünyası müxtəlif etnosların, fərqli tarixə malik xalqların, özünəməxsus həyat tərzi sürən millətlərin ehtiva olunduğu bir məkandır, sosiomədəni supersistemdir. Digər sivilizasiyalarla münasibətdə yalnız xristian dininin daşıyıcılarını İslam dünyası ilə müqayisə etmək olar. İslam dünyasının varlığını mümkün edən, onun mahiyyətini təşkil edən başlıca amil şübhəsiz ki, islam dinidir. Lakin geniş mənada İslam dedikdə həm din, həm sivilizasiya, həm də müxtəlif formalı insan cəmiyyətlərinin toplusu, yəni İslam dünyası başa düşülür. Belə demək mümkünsə, Islam yalnız din deyil, daha geniş anlayışdır, yəni müxtəlif və fərqli həyat tərzidir, eyni zamanda digər insanlara, cəmiyyətlərə, ümumən dünyaya olan universal baxışdır. İslam özünəməxsus dünyagörüşü olmaqla bu dini bölüşən insanların dünyaya baxışlarını və mədəni dəyərlərini formalaşdırır və bununla da onların həmrəyliyini yaradır, nəticədə, vahid bir sivilizasiya kimi çıxış edir. Bu kontekstdə görkəmli şərqşünas G.E.Qrünebaumun İslam sivilizasiyasına verdiyi tərif diqqət çəkir: "İslam sivilizasiyası dünyagörüşün və davranışın vahid sistemidir ki, fundamental impulsdan irəli gəlib, insanların Allaha, dünyaya və özünə olan münasibətlərini ehtiva edir"[40].

Müasir dövrdə İslam sivilizasiyasının qloballaşan dünyadakı yeri kifayət qədər böyük, onun inkişaf perspektivləri isə dünyanın gələcəyi baxımından olduqca əhəmiyyətlidir.Professor Q.İ.Mirskiy İslam sivilizasiyasının müasir dünyadakı yerini aşağıdakı kimi xarakterizə edir: "Yəqin ki, indiki dövrümüzdə islam qədər özünə diqqəti cəlb edən, çoxlu mübahisələrə səbəb olan ikinci bir din yoxdur. Onu zamanəmizin ən qüvvətli və yaşamağa qabil dini kimi dəyərləndirmək mümkündür.

---

[39] Abbasov A.F. Dünya qlobal sinergizmə ehtiyaclıdır//AMEA FSHİ, "Dünya.Cəmiyyət .Fəlsəfə"toplusu, Вакы, "Nafta-Press", 2004, s.25

[40]Грюнебаум фон Г.Э. Становление и особенности исламской цивилизации // Сравнительное изучение цивилизаций. М., «Аспект Пресс», 1999, с. 344

Yəqin dünyada elə bir din tapılmaz ki, onun daşıyıcıları islamın tərəfdarları qədər öz imanlarına hədsiz dərəcədə sadiq olsunlar. Bu dinin əsaslarında ziddiyyətlərin olmaması, qəliz intellektual və metafizik müddəaların əvəzinə sadəliyin hökm sürməsi, dünyanın aydın, vahid və anlaşılan mənzərəsinin təsvir edilməsi kimi keyfiyyətlər ona pənah gətirənlərin sayını dayanmadan artırır"[41].

İslam dünyasında canlanmanın konkret təzahürü özünü hansı sosiomədəni hadisələrdə büruzə verir? Hantinqtonun əsərində özünə yer tapmış tanınmış şərqşünas C.L.Espozitonun bu məsələyə dair fikirləri diqqət çəkir: "İslamın oyanışı özünü həm şəxsi, həm də ictimai həyatda büruzə verir. Şəxsi həyatda bu fenomen özünü dini mərasimlərin keçirilməsinə diqqətin artırılması (məscidə gedənlərin sayının artması, ibadət edənlərin və oruc tutanların sayının çoxalması), dini proqramların və çap məhsullarının yayılması, islam dəyərlərinə və həyat tərzinə daha çox diqqətin yetirilməsi kimi proseslərdə göstərir"[42]

2008-ci ildə iqtisadi proqnozlar verən Britaniyalı ekspertlər bildirmişlər ki, hazırkı əsrin ortalarında iqtisadi artıma görə yeddi ölkədən ikisi İndoneziya və Türkiyə kimi İslam dövlətləri olacaqdır[43].Maraqlıdır ki, bu ölkələr içərisində hazırda yüksək inkişaf etmiş cəmiyyətlər sırasına daxil olan dövlətlərin adları çəkilmir. İslam dünyasında iqtisadi artımın dinamikasını əsasən ərəb ölkələrindəki vəziyyət ilə müəyyənləşdirmə praktikası bir sıra digər alimlərin də tədqiqatlarında özünə yer tapır[44].

Dünya ictimaiyyətinin İslam mədəniyyətinə olan diqqəti artmaqdadır. Qeyd edilməlidir ki, İslam mədəniyyətinin dünyada tanıdılması ilə bağlı Bakıda həyata keçirilən geniş tədbirlər planının uğurla reallaşdırılması işi Azərbaycan dövlətinin, onun Pezidenti İlham Əliyevin və respublikamızın birinci xanımı Mehriban Əliyevanın dəstəyi və  iştirakı nəticəsində mümkün olmuşdur. Qeyd etmək istərdik ki, 2009-cu ildə Bakı şəhəri İslam mədəniyyətinin paytaxtı seçilmişdir

Bu fəslin sonuncu yarımfəslində **"Sivilizasiyalararası dialoqun Azərbaycan modeli"** məsələləri araşdırılır. Sivilizasiyalararası dialoqda

---

[41] Мирский Г.И. Исламская цивилизация в глобализирующемся мире // Мировая экономика и международные отношения, 2004, №6, с.29

[42] Хантингтон С. Столкновение цивилизаций, М., «Аст», 2006, с.162

[43]Лунев С.И. Исламский мир: «отстающее развитие» и мусульманский радикализм // Мировая экономика и международные отношения, 2008, с.96

[44]Мельянцев В. Арабо-исламский мир: характеристики в глобальном контексте // Мировая экономика и международные отношения, 2004,  с.3-15

Azərbaycanın mövqeyi, bu istiqamətdə ölkəmizdə həyata keçirilən düşünülmüş və məntiqli siyasət təhlil edilir. Hesab edilir ki, sivilizasiyalararası dialoqun Azərbaycan modeli birdən-birə yaranmamışdır. Onun dərin tarixi keçmişi və kökləri vardır. Ölkəmizdə müxtəlif etnoslar, bir çox millətlər və dini konfessiyalar əsrlər boyu dinc, sülh və əmin-amanlıq şəraitində yaşamışlar. Onların hər biri öz spesifik mədəniyyətini inkişaf etdirməklə yanaşı, malik olduqları milli mədəni dəyərləri bir-birilə geniş mübadilə etmişlər. Fikrimizmi fəlsəfə üzrə elmlər doktoru, professor Rəbiyyət Aslanovun vurğuladığı kimi qeyd etsək: Şərqlə Qərbin qovşağında yerləşən, multietnik və çoxkonfessiyalı mədəniyyətlərarası münasibətlərin tarixən formalaşdığı və daha qədim yaşa malik olduğu üçüncü qisim ölkələr də mövcuddur. Azərbaycan modeli məhz bu qismə aiddir[45]. Sivilizasiyalararası dialoqda Azərbaycanın artan rolunu qeyd edən görkəmli fəlsəfə üzrə elmlər doktoru, professor Səlahəddin Xəlilovun fikrincə, həqiqətən də bu gün Azərbaycan təkcə Şərqdən Qərbə və Qərbdən Şərqə gedən yolların baş keçidi deyil, habelə siyasi və iqtisadi maraqların, dinlərin, mədəniyyətlərin, sivilizasiyaların da qovuşduğu və bir-birini qarşılıqlı surətdə tamamladığı siyasi-iqtisadi və mədəni-mənəvi mərkəzə çevrilmişdir. Bu mənada Azərbaycan həm Şərq, həm də Qərb dəyərlərini ehtiva edir[46].

Azərbaycan dövlətinin sivilizasiyalararası dialoq naminə apardığı əhəmiyyətli işləri və xüsusən də, Respublikamızın birinci xanımı, Heydər Əliyev Fondonun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın fədakar fəaliyyətini qeyd etmək zəruridir.Qeyd etmək istərdik ki, sivilizasiyaların yaxınlaşdirilmasındakı xidmətlərinə görə İSESCO-nun xoşməramlı səfiri kimi yüksək fəxri adla təltif edilən Mehriban xanım Əliyeva bu ada layiq görülən ilk qadındır.muşdur. Bu mötəbər təşkilatın Azərbaycanda təhsilin və mədəniyyətin inkişafının dəstəklənməsi istiqamətində Heydər Əliyev Fondu ilə sıx əməkdaşlıq əlaqələri vardır. ( 188s.6) Rəhbərlik etdiyi Heydər Əliyev Fondunun [47] xətti ilə Mehriban xanım Əliyeva ardıcıl şəkildə sivilizasiyalararası

---

[45] Aslanova R. Mədəniyyətlərin birgə yaşayışının Azərbaycan təcrübəsi, Azərbaycan. - 2011.- 2 dekabr.- s. 5.

[46] Xəlilov S. Sivilizasiyalararası dialoq. Bakı: "Adiloğlu" nəşriyyatı, 2009, s21

[47] Heydər Əliyev fondu, konfranslar http://www.heydar-aliyev-foundation.org/az/content/blog/66/konfranslar

dialoqun qurulması istiqamətində Azərbaycanda bir sıra iri miqyaslı tədbirlərin, konfransların və beynəlxalq forumların keçirilməsinə nail ola bilmişdir.

Bütövlükdə, Azərbaycanın yerləşdiyi coğrafi məkan, həyata keçirilən sosial-iqtisadi siyasət, mədəniyyəti, dinlərə yanaşması, millətlərarası münasibətlərə göstərdiyi müsbət təsir imkan verir deyək ki, ölkəmiz dünyada sivilizasiyalararası dialoqun formalaşmasında əsas iştirakçıdır.

Dissertasiya işinin **«Nəticə»** hissəsində tədqiqata yekun vurulur, əldə edilmiş qənaətlər ümumiləşdirilir, bir sıra təklif və tövsiyələr irəli sürülür.

Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı elmi məqalələrində öz əksini tapmışdır:

1.Qloballaşma və milli mədəniyyət// AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlat İnistitutu. Fəlsəfə və həyat. Elmi məqalələr toplusu.I buraxılış.Bakı «Təknur» nəşəriyyatı -2005.s.205-210

2.Tarixi proses: hərəkətverici qüvvələrə dair mövcud baxışlar// AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlat İnistitutu. «Fəlsəfə» Elmi-nəzəri jurnal №1(10) Bakı, 2008,s123-127

3.Müasir dövrdə tarixi proses anlayışı // Dirçəliş XXI əsr, 139-140/2009 s.409-414

4.İslam dünyasının müasir sivilizasiyalar sistemində yeri və rolu// Humanitar elmlərin öyrənilməsinin aktual problemləri 6/ 2009,s.313-317

5.Sivilizasiyalararası münasibətlərdə dialoq // XXI əsr –Mülahizələr və düşüncələr. Gənc Tədqiqatçıların Respublika Elmi-Praktik Konfransının materialları (10aprel 2010-cu il)Bakı 2010s.25-26

6.Müasir dövrdə sivilizasiyalararası münasibətlər// AMEA-nın Müasir mərhələdə sosial fəlsəfənin aktual probləmləri. Məqalələr toplusu Bakı "Təknur"2011, s.143-153

7.Qloballaşma prosesində sivilizasiyaların rolu // Bakı Avrasiya Universitetinin Qloballaşma şəraitində humanitar elmlərin aktual problemləri mövzusunda keçirilmiş Respublika konfransının materialları (15 mart 2011-ci il) s.343-344

9.«Развитие цивилизаций в эпоху глобализации» - «Вышая школа Казакстана» № 4/2011(философия) с.168-172

**Асадова Наиля Шахбаз кызы**

**Роль цивилизаций в современном историческом процессе**

**Резюме**

**Во Введении** обоснована актуальность темы диссертационной работы, отражена степень разработанности проблемы, цель и задачи исследования, научная новизна, теоретико-методологические основы, теоретико-практическое значение научной работы.

В первой главе диссертации "Исторический процесс и цивилизация в контексте исторического познания" анализируется философское содержание понятий "исторический процесс" и "историческое познание"; исследуются внутренние и внешние факторы социокультурной системы; отношение исследователей к роли лидера в исторических процессах, а также законам развития общества. Наряду с этим, в форме сравнения и обобщения проводится социально-философский анализ представлений понятия цивилизации и различных концепций о цивилизации.

Во второй главе диссертации, которая называется "Взаимоотношения, место и роль цивилизаций в глобализирующемся мире " указывается, что исследования, посвященные вопросам взаимоотношения, диалога и взаимовлияния цивилизаций на современном этапе занимают особое место среди наиболее актуальных философских проблем. Отмечается, что суть глобализации еще не до конца осознана. Так, некоторые оценивают глобализацию как стихийный процесс, другие называют ее процессом, возникшем как объективная закономерность.

В работе анализируется растущая роль ислама и оживление всего исламского мира, исследуются прогрессивные факторы, имеющие место во всех сферах общественной жизни и отношение к успехам технического прогресса. Делается вывод, что с возникновением исламской социокультурной суперсистемы связи между цивилизациями приняли более тесный и устойчивый характер, и в настоящее время мир вступил в эпоху полицивилизационных отношений.

В диссертации широко анализируются приоритетные работы, проводимые в последние годы Азербайджанским государством во имя межцивилизационного диалога, в частности, самоотверженная деятельность президента Фонда Гейдара Алиева, Посла доброй воли ЮНЕСКО и ИСЕСКО, члена Милли Меджлиса Мехрибан ханум Алиевой.

В **Заключении** диссертации нашли отражение основные выводы и рекомендации соискателя.

**Asadova Naila Shahbaz**

**Role of civilizations in modern historical process**

**Summary**

In Introduction,The subject of the dissertation work is reasoned,readiness degree of the problem, the purpose and research problems,scientific novelty, theoretical and methodological bases, theoretical and practical value of the scientific work is reflected

In chapter1 "**Historical process and a civilization in a context of historical knowledge"**. It is analyzed in this chapter the philosophical content of the concepts "historical process" and "historical knowledge", examines the internal and external factors which influence to formation of sociocultural system, the relation of certain philosophers and researchers to a role of the leader in historical processes, and also to laws of development of society. It is reported that emergence of interest to history, preparation of the necessary soil for transition from spontaneous consciousness to the real historical consciousness, that is to historical knowledge, is connected with process of transition of a historical reflection from the oral text to the written text. At the same time it is carried out in this chapter the social and philosophical analysis of thoughts of formation of the civilization concept and various concepts about a civilization, becomes comparisons and generalizations.

In chapter 2 **"Relationship, the place and a role of civilizations in the globalizing world"** The researches which devoted to questions of relationship, dialogue and interference of civilizations at the present stage take a special place among the philosophical problems which have relevance. It is noted that the essence of globalization isn't yet realized up. So, there are ones who estimate globalization as spontaneous process, and ones who call it the process, appeared as objective regularity. The international non-governmental organizations are estimated as a basis of global civil society which will be created in the future.

The growing role of the Islamic world in the world is analyzed again, delays the progressive factors which take place in all spheres of public life and the relation to progress of technical progress, revival manifestation in the Islamic world in various sociocultural events. It is drawn such conclusion that with emergence of an Islamic sociocultural supersystem the communications between civilizations has accepted closer and steady character and in the present the world entered an era of the polycivilization relations.

Considerable works of the Azerbaijani state for intercivilization dialogue at last time, in particular, the self-sacrificing activity of the first lady of our republic, president of Fund Heydar Aliyev, Goodwill ambassador of UNESCO and ISESKO, member of Milli Majlis Mekhriban khanum Aliyeva are widely analyzed.

In the **Conclusion** of the thesis,the main conclusions and recommendations of the competitor were reflected.

AMEA-nın mətbbəsində çap olunmuşdur

Tiraj- 100

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ [illegible]СОФИИ И ПРАВА**

*На правах рукописи*

**Наиля Шахбаз кызы Асадова**

# РОЛЬ ЦИВИЛИЗАЦИЙ В СОВРЕМЕННОМ ИСТОРИЧЕСКОМ ПРОЦЕССЕ

**Специальность: 7207.01-Социальная философия**

## АВТОРЕФЕРАТ

Диссертации на соискание ученой степени доктора философии по философии

**Баку-2014**